0151100021

**AZƏRBAYCAN RESPUBLİKASI**
**GÖYÇAY RAYONU GÖYÇAY BƏLƏDİYYƏSİ** / ITH

Göyçay şəhəri, N.Nərimanov küçəsi 32 | Le 01 OCT. 2019 | Tel.274-06-59

N° 0496

N-66 07 Mart 2019-cu il

**Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru**
**Xanım Odri Azule (Andrey Azoulay)**

**Hörmətli Odri xanım !**

Göyçay rayonu Göyçay bələdiyyəsi ənənəvi "Nar bayramı" festivalı nominasiyasının YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsini böyük məmnuniyyət hissi ilə dəstəkləyir.

Göyçay Azərbaycanın "Nar paytaxtı" hesab olunur. Belə ki, bu şəhərdə narın bir çox növü yetişdirilir. Narın ən məşhur növləri isə "Vələs", "Şirin", Gülövşə" (Gülöyşə) və "Şişbaba" sortlarıdır. Festival əsnasında ayrı-ayrı icmalar yarmarka təşkil edərək narın müxtəlif sortlarını, o cümlədən bu dəyərli meyvədən hazırlanmış çeşid-çeşid yerli məhsulları nümayiş etdirirlər.

Festival hər il ənənəvi xalq musiqisi, eləcə də gənc pəhləvanların çıxışı ilə müşayiət olunur.

Nar festivalına həmçinin müxtəlif ənənəvi mərasimlər, bir-birindən maraqlı müsabiiqələr, rəqs ifaları,rəngarəng yarmarkalar, paradlar və ifaçılıq çıxışları daxildir. Festivalda yerli icma nümayəndələri nar ilə bağlı maraqlı müsabiqələr (məsələn: ən sürətli şirəçəkmə müsabiqəsi) də təşkil edirlər. Göyçay əhalisi nardan müxtəlif ənənəvi məhsullar-şirə konsentratları, cem, jele, çaxır və toxum əldə etmək üçün öz bacarıq və biliklərindən istifadə edirlər. Tədbirə qatılan iştirakçılar burada rayon sakinlərinin əl əməyindən istifadə etməklə hazırladıqları məhsulların sərgisi ilə tanış olurlar. Festivalın qonaqları isə müxtəlif sənətkarlar, ustalar, dulusçular, dəyirmançılar, dəmirçilər, incəsənət xadimləri və rəqqaslar, habelə pəhləvanlar və folklor qruplarının çıxışları, eləcə də uşaqların rəsm işlərini, musiqi, mahnı və rəqs ifalarını izləyə bilirlər.

Göyçay əhalisi ənənəvi "Nar bayramı" festivalının YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsini böyük iftixar və məmnuniyyət hissi ilə dəstəkləyir.

Göyçay bələdiyyəsi bu ənənəvi festivalı gələcəkdə də dəstəkləmək, habelə nar ilə bağlı bilik və ənənələrin gələcək nəsillərə ötürülməsini təmin etmək niyyətindədir.

**Göyçay bələdiyyəsinin sədri:** **Cavid Rəhimov**

*__Unofficial translation__*

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural
Organization

Dear Ms Azoulay,

It is with great pleasure that the Goychay City Municipality would like to support the nomination on Nar Bayrami, traditional pomegranate festivity and culture for the inclusion into the UNESCO Representative List of Intangible Culture Heritage of Humanity.

Goychay is considered the pomegranate capital of Azerbaijan because many varieties of pomegranates are grown in the city. The most famous sorts of pomegranate are Veles, Shirin, Gyuleysha and Shishbaba. During the festivity, communities organize a fair and display different varieties of pomegranates, as well as various local products produced from this valuable fruit. The festivity is accompanied with folk music played every year, as well as young athletes' performance.

The Nar festivity celebrates the pomegranate culture and includes ceremonies, competitions, dancing events, fairs, parades, performances. Members of local communities also organize competitions with pomegranates, such as the competition of the fastest juice squeezing. The locals of Goychay use their knowledge to create various traditional products from pomegranate - juice concentrates, jam, jelly, wine and seeds.

Participants of the festivity have the opportunity to get to know the exhibition of the products prepared by the local families of the region. Participants present at the events include craftsmen, potters, millers, blacksmiths, artists and dancers, athletes; visitors can attend and enjoy performances of folklore groups, see children's drawings, paintings, as well as listen and hear music, songs and dances.

It is with great pleasure that the locals of Goychay support the proposal to inscribe Nar Bayrami, traditional pomegranate festivity and culture for the inclusion into the UNESCO Representative List of Intangible Culture Heritage of Humanity. Goychay City Municipality is committed to further support this traditional culture and ensure that the knowledge and traditions related to pomegranate are transmitted to the next generation.

/Signed/

Javid Rahimov
Chairman of the Goychay Municipality

**YUNESKO-nun Baş Direktoru, xanım Odri Azuleyə**

**Hörmətli xanım Baş Direktor,**

Ənənəvi nar bayramı Azərbaycan ərazisində Göyçay rayonunda hər il noyabr ayında, nar yığımı vaxtı keçirilən bayram şənliyidir. Bayramda Göyçayın və Azərbaycanın digər rayonlarının sakinləri, habelə respublikadan kənarda yaşayan azərbaycanlılar iştirak edirlər. Nar bayramında Göyçay rayonun ayrı-ayrı kəndlərində yetişən nar növləri və onlardan hazırlanmış məhsullar rayon mərkəzinə gətirilir və şəhər meydanında təşkil olunmuş sərgidə nümayiş etdirilir. Bayram zamanı şəhər mərkəzində gənc idmançıların çıxışları və konsert proqramlarına tamaşa edilir. Bayram iştirakçıları şəhərin mərkəzi meydanında nar məhsullarından hazırlanmış şirələrə qonaq edildilər.

Azərbaycan tarixi uzaq əsrlərə gedib çıxan narın yetişdirilməsi mədəniyyəti ilə qırılmaz surətdə bağlıdır. Narlar tarixən Azərbaycanın demək olar ki, bütün regionlarında yetişdirilir. Lakin yerli sakinlər quru subtropik zonada yerləşən Şirvanda ən yaxşı nar sortlarının yetişirlər. Yerli icmalar hesab edirlər ki Göyçay narlarının əla dadı və dəyişməz keyfiyyətinin sirri unikal mikroiqlimin mövcudluğu və rayonun torpaq tərkibidir. Narla bağlı ənənələr və nardan istifadə edən mətbəx nümunələri milli mədəniyyətimizin tərkib hissəsidir və nəsildən nəslə ötürülür.

Bununla əlaqədar ənənəvi Nar bayramının mədəniyyətimiz üçün əhəmiyyətini nəzərə alaraq, təşkilatımız Nar bayramının YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsini dəstəkləyir və bu ənənəvi bayrama dair qorunma tədbirlərində fəal iştirak etməyə hazırdır.

Hörmətlə,

**CAVAN İB-nin icraçı direktoru** **Orxan Kərimov**

CAVAN GƏNCLƏR HƏRƏKATI İCTİMAİ BİRLİYİ
CAVAN

*__Unofficial translation__*

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Mrs Director-General,

The traditional pomegranate festivity of Nar Bayrami and pomegranate culture are celebrated every year in November in the Goychay region of Azerbaijan, at the time of pomegranate harvesting. The communities of Goychay and other regions of Azerbaijan, as well as Azerbaijanis living abroad participate in the celebration. Locals bring different varieties of pomegranates to the city centre of Goychay and display the fruits at the traditional faire during the festivity. During the festivity events, communities witness performances of young athletes and concert programs in the city centre. The participants of the festivity welcome guests at the city square and offer pomegranate juice.

The history of Azerbaijan is inextricably linked with the culture of pomegranate cultivation that goes back to centuries. Historically, communities have grown pomegranates in almost all regions of Azerbaijan. People say that the best pomegranates are grown in Shirvan valley, located in a dry subtropical zone. Local communities believe that the secret of the strong culture of pomegranates is linked to the microclimate and the soil of the region. Traditions linked to pomegranate and its culture are an integral part of our national culture and are passed down from generation to generation.

In view of the importance of the traditional Nar Bayrami festivity and pomegranate culture, our organization supports the inclusion of the element in the UNESCO Representative List of the Intangible Cultural Heritage and is ready to actively participate in the measures dedicated to its safeguarding.

/Signed/
Orkhan Karimov
Executive Director of CAVAN Public Union

GÖYÇAY İNKİŞAF MƏRKƏZİ
GƏNCLƏR İCTİMAİ BİRLİYİ

Göyçay İnkişaf Mərkəzi Gənclər İctimai Birliyi
Goychay Development Center Youth Public Union
Ünvan: Ünvan: H. Əliyev pr. 88. Göyçay, Azərbaycan


M/№ 03.19 06.03.2019

**Birləşmiş Millətlər Təşkilatının**
**Elm, Təhsil və Mədəniyyət üzrə**
**(YUNESKO) Baş Direktoru,**
**xanım Odri Azuleyə**

Hörmətli xanım Azuley,

Azərbaycan dünyanın ən qədim diyarlarından biridir və bu qədim diyarın gözəl bölgəsi Göyçay şəhəridir. Hər il payızın sonlarında Göyçayda ənənəvi Nar bayramı keçirilir. Nar Azərbaycanın simvoludur, nar dünyəvi meyvədir, nar meyvələrin şahıdır. Nar bayramı nar bitkisinin məhsulu toplandıqdan sonra bolluq-bərəkət əhvalından doğan şükranlıq duyğusunu ifadə edən qədim bir mövsüm mərasimidir. Narın ruzi-bərəkət, xeyir-uğur simvolu kimi əzizlənməsi, nəğmələr, oyunlar, rəqs və musiqi vasitəsi ilə tərənnüm olunması, mədh edilməsi bayram mərasimində əsas yer tutur. Narçı baba və Nar qızın təbriki və xeyir-duası ilə başlanan mərasimdə narın becərilməsi, yığımı və ondan müxtəlif məhsulların alınması ilə bağlı etnoqrafik səhnələr canlandırılır.

Bayram tədbirində qonaqlar sərgi masalarına yaxınlaşaraq nardan hazırlanan məhsulların, o cümlədən nardançanın, nar şərabın, nar şirəsinin, nar mürəbbəsinin, və müxtəlif şirniyyatların dadına baxırlar. Bayramda nara həsr olunan şeir və mahnılar səsləndirilir, rayon bədii özfəaliyyət kollektivlərinin, aşıqların, meyxanaçıların, kəndirbazların, musiqi məktəbi şagirdlərinin çıxışları olur. Yerli sakinlər narın mədəniyyətimizə güclü təsir etdiyini hesab edirlər. Bayramda ən böyük nar müsabiqəsinin, nar atmaq, nar sıxmaq yarışlarının qalibləri mükafatlandırılır. Tədbirdəki ən böyük narın çəkisi yarışları olur.

Hesab edirik ki, Nar bayramı, narla bağlı mədəniyyət ənənələri gələcək nəslə ötürülməsi üçün təşviq edilməlidir. Bununla əlaqədar, bayramın YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına təqdim edilməsini tamamilə dəstəkləyir və YUNESKO tərəfindən bu elementin tanıdılmasında köməklik göstərməyiniz xahiş edirik..

Hörmətlə,
Göyçay İnkişaf Mərkəzi
Gənclər İctimai Birliyi Əzizağa Atakişiyev

«Göyçay İnkişaf Mərkəzi» Gənclər İctimai Birliyi
«Goychay Development Center» Youth Public Union

***Unofficial translation***

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Ms Azoulay,

Azerbaijan is one of the oldest countries in the world and Goychay is one of its most beautiful regions. Every year in late autumn, the traditional Nar Bayrami is celebrated in Goychay. Pomegranate is a symbol of Azerbaijani communities, it is the fruit of the world; people consider pomegranate 'the king of fruits'. Nar Bayrami is an ancient seasonal festivity that expresses the sense of gratitude to the abundance of pomegranates collected after harvesting. During the festivity, people honour the pomegranate as a symbol of prosperity, they praise the fruit through singing, dances, games and music. Starting with the blessings of pomegranate grandfather (Nar Baba) and pomegranate girl (Nar qizi), the festivity ceremony revives folk scenes related to pomegranate cultivation, harvesting and preparation of pomegranate-based products.

During the festive events, visitors approach the stands of the fair and enjoy the tasting of various sweets from the pomegranate: nardancha, nar sharab, pomegranate juice, and pomegranate jam. At the festivity, people perform poems and songs about pomegranates; the events include performances by artistic teams of the regions, ashugs, meykhama performers, jugglers, as well as performances by students of local music schools. Local people believe that pomegranate has a strong influence on our culture. Winners of various competitions are awarded as the result of the festivity; this includes the competitions of the biggest pomegranates, pomegranate throwing and pomegranate squeezing. Another important competition of the festivity is the one on heaviest pomegranate at the festivity.

We believe that the Nar Bayrami and pomegranate culture should be encouraged to be transmitted to the next generation. In this regard, we strongly support the inclusion of the element in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and we request your support in recognizing this element by UNESCO.

/Signed/

Azizagha Atakishiyev
Goychay Development Center Public Union

GSW
International Youth Union

"Great Silk Way"
International Youth Union
Samed Vurgun str. 43
World Business Center, 6th floor.
AZ1014, Baku, Azerbaijan.
Tel.: (+994 12) 597 48 86
Fax: (+994 12) 597 30 56
E-mail: secretariat@gswyouth.org
website: www.gswyouth.org

№ 01GSW/105 Date 19 09 2019

**Elm, Təhsil və Mədəniyyət üzrə**
**Birləşmiş Millətlər Təşkilatının**
**(UNESCO) Baş Direktoru,**
**xanım Odri Azuleyə**

**Hörmətli xanım Azuley,**

Azərbaycanın tarixi nar ağacının əsrlərin dərinliyinə gedən yetişdirilməsi ənənəsi ilə ayrılmaz şəkildə bağlıdır. Bu nadir təbiətli, müxtəlif şəraitli doqquz iqlim qurşağına malik olduqca gözəl cənub ölkəsidir. Ola bilər ki, məhz belə iqlim müxtəlifliyi sayəsində Azərbaycanda demək olar ki, bütün nar növləri yetişdirilir.

Hər il Göyçayda keçirilən Nar bayramı Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Bayram iştirakçıları günboyu nar məhsullarının sərgi-yarmarkasında iştirak edir, rayon mədəniyyət evinin musiqi kollektivi, məktəblilərdən ibarət mahnı və rəqs qrupları, kəndirbaz və idmançılar bayram tədbirində çıxış edirlər. Tədbir zamanı nar ilə bağlı müxtəlif müsabiqələr, oyunlar keçirilir.

Nar bayramının aidiyyəti icmalara məxsus qeyri-maddi irs kimi UNESCO-nun Reprezentativ siyahısına alınması, bu elementin beynəlxalq miqyasda tanıdılması baxımından böyük tarixi-mədəni əhəmiyyətə malikdir. Siyahıya alınma bu mərasimin keçirilməsinə maraq və diqqəti daha da artırmaqla yanaşı, həmin elementə böyük nüfuza malik beynəlxalq qurumun göstərdiyi etimadın doğruldulmasına və məsuliyyət hissinin artırılmasına öz müsbət təsirini göstərəcəkdir. Bununla əlaqədar, Nar bayramının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsini dəstəkləyirik və qorunma tədbirlərində fəal iştirak edəcəyi təsdiqləyirik.

**Hörmətlə,**

**"Böyük İpək Yolu" BGİ sədri** Aytən Əliyeva

***Unofficial translation***

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Ms Azoulay,

The history of Azerbaijan is inextricably linked to the centuries-old tradition of pomegranate cultivation. It is a very beautiful southern country with nine unique climates with unique natural conditions. It is possible that thanks to such climatic diversity, communities in Azerbaijan grow almost all types of pomegranates.

The culture of pomegranate and the Nar Bayrami held annually in Goychay are of great importance for Azerbaijan. The participants of the festivity take part in the fair of pomegranate products; the music troupe of the regional house of culture, song and dance groups of schoolchildren, jugglers and athletes perform during the events. The festivity also includes various contests and games among communities that are related to pomegranate.

The inclusion of Nar Bayrami and pomegranate culture an intangible heritage belonging to the respective communities is of great historical and cultural importance in terms of the international recognition of this element in the UNESCO Representative List. Not only will this increase the interest and attention of the element, it will also have a positive impact on the increased sense of responsibility as a result of the trust and visibility to this element from the international organization. In this regard, we support the inclusion of Nar Bayrami and pomegranate culture in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity and confirm that we will actively participate in the safeguarding activities.

/Signed/

Ayten Aliyeva
Chairperson, Great Silk Way Youth Union

Azərbaycan Respublikası
Gənclər Təşkilatları
Milli Şurası

№ 244

25.09.2019

**Elm, Təhsil və Mədəniyyət üzrə**
**Birləşmiş Millətlər Təşkilatının**
**(UNESCO) Baş direktoru,**
**xanım Odri Azuleyə**

**Hörmətli xanım Baş Direktor,**

Nar bayramı qədim dövrlərdən bəri Azərbaycanda keçirilən mövsüm mərasimidir. Narın azərbaycanlıların təsərrüfat və məişət həyatında əhəmiyyətli yer tutması arxeoloji materiallarda da öz əksini tapmışdır. Azərbaycan nağıl və dastanlarında, əfsanə və rəvayətlərində, qədim el inamlarında, xalq mahnılarında, aşıq şeirlərində nar mövzusu geniş yer tutur. Nar obrazı Azərbaycan folklor və etnoqrafiya mədəniyyətinin ən populyar rəmzi-məcazi fiqurlarından biri olduğu üçün şifahi və yazılı qaynaqlarda, habelə tikmə, oyma, xalçaçılıq, rəngkarlıq və başqa sənət sahələrində onun çoxçeşidli inikaslarını görmək mümkündür.

Milli musiqi və rəqslərin müşayiəti ilə keçən Nar bayramındakı ritual, aksiya və obrazlar insanın təbiətlə münasibətlərini əks etdirən arxaik mifoloji görüşləri, eləcə də narın unikal bir nemət kimi təsərrüfat və məişət həyatındakı tarixi yeri və dəyəri öz inikasını tapmışdır.

Nar bayramı uzaq tarixi keçmişdən daşınıb gələn milli-mənəvi dəyərlərin və yeni nəsillərə mənimsədilməsində mühüm sosial-mədəni vəzifə yerinə yetirir. Bu bayram mərasimi vasitəsi ilə xoş ünsiyyət, səmimi münasibət, yardımlaşma, paylaşma, gözəllik və şəfqət bəxşetmə kimi humanist mənəvi keyfiyyətlər dövriyyədə saxlanılır. Narla bağlı xalq musiqi örnəklərinin, mahnı, oyun və rəqslərin, yarışmaların təbliği bu sahədəki mədəni-tarixi irsin qorunması və cəmiyyətin mənəvi həyatında fəal işləklik qazanması imkanı yaradır.

Bununla əlaqədar, nar bayramının mədəniyyətimiz üçün əhəmiyyətinin nəzərə alaraq, təşkilatımız bu elementin UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsini dəstəkləyir və rəhbərlik etdiyiniz təşkilat tərəfindən bu elementin tanıdılmasında köməklik göstərməyinizi Sizdən xahiş edir.

Hörmətlə,

**Məryəm Məcidova**
**Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri**
**Mob: +99477 421 11 23**
**E-mail: maryam.majidova@nayora.az**

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası · National Assembly of Youth Organizations of the Republic of Azerbaijan · MİLLİ ŞURA

*Unofficial translation*

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Mrs Director-General,

Nar Bayrami is a seasonal festivity held in Azerbaijan since ancient times. The importance that communities attached to the pomegranate culture in their domestic and economic life can be found in the archaeological materials. The culture of pomegranate is widespread in Azerbaijani fairy tales and legends, myths and legends, ancient folk beliefs, folk songs, ashug poems. Pomegranate is one of the most popular and figurative symbols of the folklore and ethnographic culture of Azerbaijan, and references to it and its role and functions can be traced in oral and written sources; it can also often be found in images and patterns of embroidery, carving, painting and other traditions.

Accompanied by folk music and dances, the rituals, activities and characters during the Nar Bayrami festivity have archaic mythological meaning reflecting human relations with nature, the unique place of the pomegranate in the history, culture and economic and household life of communities.

Pomegranate culture plays an important social and cultural role in the transmission of communities' values from the distant past to the new generations. Through this element, humanistic moral qualities, such as good communication, warmth, sympathy, help, sharing, beauty and compassion, are safeguarded and kept alive. The promotion of folk music, songs, games and dances, contests and other traditions related to pomegranates provides the opportunity to preserve the cultural and historical heritage and ensure active exchange in the cultural life of the communities.

In this regard, given the importance of pomegranate culture for our culture and identity, our organization supports the inclusion of this element in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity, and we would kindly request the support of your organization in promoting this element.

/Signed/
Maryam Majidova
Chairperson of the National Council of Youth Organizations

## Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi
## Xəzər Gənclər Evi Sosial Xidmət Müəssisəsi

**Az1000 Bakı Şəhəri**
**Ünvan: Şüvəlan qəs.A.İldırım küçəsi, 1-ci dalan "5B"** **Tel:(012) 454-91-52**

**N 48** **17 Sentyabr 2019-cu il**

**Elm, Təhsil və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatının (UNESCO) Baş Direktoru, xanım Odri Azuleyə**

**Hörmətli xanım Baş Direktor,**

Nar bayramı qədim dövrlərdən bəri Azərbaycanda keçirilən mövsüm mərasimidir. Narın azərbaycanlıların təsərrüfat və məişət həyatında əhəmiyyətli yer tutması arxeoloji materiallarda da öz əksini tapmışdır. Azərbaycan nağıl və dastanlarında, əfsanə və rəvayətlərində, qədim el inamlarında, xalq mahnılarında, aşıq şeirlərində nar mövzusu geniş yer tutur. Nar obrazı Azərbaycan folklor və etnoqrafiya mədəniyyətinin ən populyar rəmzi-məcazi fiqurlarından biri olduğu üçün şifahi və yazılı qaynaqlarda, habelə tikmə, oyma, xalçaçılıq, rəngkarlıq və başqa sənət sahələrində onun çoxçeşidli inikaslarını görmək mümkündür. Milli musiqi və rəqslərin müşayiəti ilə keçən Nar bayramındakı ritual, aksiya və obrazlar insanın təbiətlə münasibətlərini əks etdirən arxaik mifoloji görüşləri, eləcə də narın unikal bir nemət kimi təsərrüfat və məişət həyatındakı tarixi yeri və dəyəri öz inikasını tapmışdır.

Nar bayramı uzaq tarixi keçmişdən daşınıb gələn milli-mənəvi dəyərlərin və yeni nəsillərə mənimsədilməsində mühüm sosial-mədəni vəzifə yerinə yetirir. Bu bayram mərasimi vasitəsi ilə xoş ünsiyyət, səmimi münasibət, yardımlaşma, paylaşma, gözəllik və şəfqət bəxşetmə kimi humanist mənəvi keyfiyyətlər dövriyyədə saxlanılır. Narla bağlı xalq musiqi örnəklərinin, mahnı, oyun və rəqslərin, yarışmaların təbliği bu sahədəki mədəni-tarixi irsin qorunması və cəmiyyətin mənəvi həyatında fəal işləklik qazanması imkanı yaradır.

Bununla əlaqədar, nar bayramının mədəniyyətimiz üçün əhəmiyyətinin nəzərə alaraq, təşkilatımız bu elementin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsini dəstəkləyir və rəhbər etdiyiniz təşkilat tərəfindən bu elementin tanıdılmasında köməklik göstərməyinizi xahiş edirik.

Hörmətlə,

**Xəzər Gənclər Evinin**
İcracı direktor

Samirə Məmmədzadə

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Xəzər Gənclər Evi sosial xidmət müəssisəsi

*Unofficial translation*

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Mrs Director-General,

Pomegranate culture and Nar Bayrami are celebrated in Azerbaijan since ancient times. Archaeological materials confirm that communities have attached great importance to the pomegranate culture in their domestic and economic life. Communities in Azerbaijan express the culture of pomegranate through fairy tales and legends, myths and legends, ancient folk beliefs, folk songs, poems. People consider the pomegranate as one of the most popular symbols of the folk and popular culture of Azerbaijan. Indeed, references to the fruit can be found in oral and written sources, its images and patterns – in embroidery, painting, carving, weaving and other traditions.

The Nar Bayrami festivity and pomegranate culture express old mythological meanings reflecting human relations with nature, as well as the unique place of the pomegranate in the history. Under the accompaniment of folk music and dances, in the atmosphere of rituals and traditions, this culture plays an important role in the transmission of communities' values from the distant past to the new generations. Through this element, moral qualities, such as good communication, warmth, sympathy, help, sharing, beauty and compassion, are safeguarded and kept alive. The promotion of folk music, songs, games and dances, contests and other traditions related to pomegranates provides the opportunity to preserve the cultural and historical heritage and ensure active exchange in the cultural life of the communities.

Considering the importance of pomegranate culture and Nar Bayrami for our culture and identity, our organization supports the inclusion of this element in the UNESCO Representative List of the Intangible Cultural Heritage of Humanity. In this context, we would kindly request the support of your organization in promoting this element.

/Signed/
Samira Mammadzade
Khazar Gencler Evi

**AZƏRBAYCAN RESPUBLİKASI GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**GÖYÇAY ŞƏHƏR İNZİBATİ ƏRAZİ DAİRƏSİ ÜZRƏ NÜMAYƏNDƏLİYİ**

2300 Göyçay şəhəri H.Əliyev pr 30 Tel. (0-2027) 4-33-19

№ 54 "07" mart 2019-cu il

**OdriAzule ( Audrey Azoulay )**
**Birləşmiş Millətlər Təşkilatının**
**Təhsil, Elm və Mədəniyyət**
**Təşkilatının Baş Ddirektoru**

**Hörmətli Odri xanım!**

Biz ənənəvi "Nar bayramı" festivalı nominasiyasının YUNESKO-nun Bəşəriyyətin qeyri –maddi mədəni irsi üzrə reprezentativ siyahısına daxil edilməsini dəstəkləyən bu məktubu böyük məmnuniyyətlə Sizə ünvanlayırıq. Göyçay Rayon İcra Hakimiyyəti bu mühüm festivalın ən vacib dəstəkçiləri və təşkilatçılarından biridir.

Bu ənənəvi festival Göyçay ictimaiyyətinin yerli kimliyinin özəyini təşkil edir. Nar Azərbaycanlılar üçün sadəcə meyvə deyil-bu dəyərli meyvə həmdə müxtəlif yaş və etnik qrupları təmsil edən insanları bir araya gətirən bütov bir mədəni-kulinar ənənələr dünyasıdır. Bu insanlar həmdə meyvə yığımı mövsümündə nar mədəniyyətinin müxtəlifliyini qeyd edən Nar bayramının əsas iştirakçılarıdır.

Festival əsnasında dövlət strukturları və yerli sakinlər müxtəlif sərgilər təşkil edir, tədbirlər keçirir və ayrı-ayrı nar sortlarını, habelə bu meyvədən hazırlanan şirə, cem və digər məhsulları nümayiş etdirirlər. Nar özünün bir sıra tibbi xüsusiyyətlərinə görə də məşhurdur-yerli əhali inanır ki, nar şirəsindən qan təzyiqini sabitləşdirmək, nar ağacının kökündən müxtəlif bədən əzalarını və ya ağrıları keyitmək, nar meyvəsinin qabığından isə həzmi yaxşılaşdırmaq üçün istifadə etmək olar. Həmçinin festivala Göyçay şəhərinin mərkəzində keçirilən gənc pəhləvanların çıxışları və müxtəlif konsert proqramları da daxildir. Festival tədbirləri çərçivəsində ənənəvi mərasimlər, bir –birindən maraqli müsabiqələr, rəqs ifaları, rəngarəng yarmarkalar, paradlar və ifaçılıq çıxışları keçirilir.

Göyçay Rayon İcra Hakimiyyəti ənənəvi "Nar bayramı" festivalının YUNESKO-nun Bəşəriyyətin qeyri - maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsini yaxından dəstəkləyir və nar mədəniyyəti irsindən gələcək nəsillərin də faydalana bilməsi üçün Nar bayramının budan sonra da həm yerli, həm də dövlət səviyyəsində mühafizə olunması və təbliğedilməsini dəstəkləmək əzmindədir.

**Göyçay RİHB-nın Göyçay şəhər**
**inzibati ərazi dairəsi üzrə nümayəndəsi:** **R.Şükürov**

*Unofficial translation*

Mrs Audrey Azoulay
Director-General of United Nations
Educational, Scientific and Cultural Organization

Dear Ms Azoulay,

We are pleased to address to you this letter of support to the nomination of Nar Bayrami, traditional pomegranate festivity and culture for the inclusion into the UNESCO Representative List of Intangible Culture Heritage of Humanity. The Executive Authority of Goychay has been one of the most important supporters and organizers of this significant festivity.

This traditional event and pomegranate culture have been at the core of identity of the communities in Goychay. The pomegranate for Azerbaijanis is much more than just a fruit. It is a world of cultural and culinary traditions, bringing together people of different ages and different ethnic groups. These people are the main communities and participants of Nar Bayrami festivity - celebrating the diversity of the culture of pomegranate during the fruit picking season.

During the festivity, authorities and local communities hold various events, exhibitions, activities, display different varieties of pomegranate, juice, jam and other products made from this fruit. The pomegranate is also famous for many medicinal properties. Communities believe that pomegranate juice can be used to stabilize blood pressure, roots can be used as an anesthetic, and the peel – to improve digestion. The festivity also includes young athletes' performances and concert programs that can be seen in the Goychay city center. Festivities include traditional ceremonies, competitions, dancing events, fairs, parades and performances.

The Executive Authority of Goychay highly supports the nomination Nar Bayrami, traditional pomegranate festivity and culture for the inclusion into the UNESCO Representative List of Intangible Culture Heritage of Humanity. The Authority confirms its commitment to further support the safeguarding and promotion of the element at the local and national level, so that the next generation could also benefit from the heritage of the pomegranate culture.

/Signed/

R.Shukurov
Representative of the Head of Goychay Regional Executive Authority